Bu gün ATU-da buraxılış günüdür!

http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 10 (1607) 29 may 2015 - ci il Qiyməti 40 qəpik

## Azərbaycan Prezidenti İlham Əliyev birinci Avropa Oyunlarının Atletlər və Media kəndlərinin açılışlarında iştirak edib



**Mayın 25-də Bakıda birinci Avropa Oyunlarının Atletlər və Media kəndlərinin açılışı olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva açılışlarda iştirak ediblər.

Dövlətimizin başçısı və xanımı əvvəlcə Atletlər kəndində oldular.

Gənclər və idman naziri, birinci Avropa Oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimov dövlətimizin başçısına və xanımına görülmüş işlərlə bağlı məlumat verdi.

Qeyd edildi ki, birinci Avropa Oyunlarının keçirilməsi zamanı istifadə olunacaq Atletlər kəndi 383 min kvadratmetr sahəni əhatə edir. Atletlər kəndi Oyunların keçiriləcəyi əsas idman komplekslərinə - Bakı Olimpiya Stadionuna, Milli Gimnastika Arenasına və Heydər Əliyev Beynəlxalq Aeroportuna yaxın olmaqla yanaşı, şəhərin müxtəlif istiqamətlərinə gediş-gəlişin rahat və sərfəli olduğu bir ərazidə yerləşir...

...Azərbaycan Prezidenti İlham Əliyev Atletlər kəndinin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva atletlərin qalacağı binalarda yaradılan şəraitlə tanış oldular.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Media kəndinin açılışında iştirak etdilər.

Azərbaycan Prezidenti Media kəndinin rəmzi açılışını bildirən lenti kəsdi.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

## Bu sayımızda



Azərbaycan Tibb Universiteti rezidentlərinin (ATUREK 3) 3-cü elmi-təcrübi konfransı 2

Türkiyənin Selcuk və Azərbaycanın Tibb Universiteti arasında müqavilə imzalanıb 3



Fəal tələbələr diplom aldı



Ürək-Damar Mərkəzində pulsuz müayinə həftəsi keçirilib 3

Baku 2015
1st EUROPEAN GAMES



Birinci Avropa Oyunları zamanı qonaqlara Azərbaycan Tibb Universitetinin 400 tələbəsi ilkin tibbi xidmətlər göstərəcək 7

# Azərbaycan Tibb Universiteti rezidentlərinin (ATUREK 3) 3-cü elmi-təcrübi konfransı

**Mayın 14-də ATU-nun böyük akt zalında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş Azərbaycan Tibb Universiteti rezidentlərinin 3-cü elmi-təcrübi konfransı keçirilib. Konfrans iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin universitetin foyesindəki büstünün önünə əklil qoyub və gül dəstələri düzüblər.**













Sonra tədbir iştirakçıları foyedə rezidentlərin elmi tədqiqat işlərini əks etdirən pasterlə tanış olublar. Toplantıda Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Konfransın açılışı zamanı giriş nitqi söyləyən universitetin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov tədbir iştirakçılarını salamlayaraq ulu öndər Heydər Əliyevin Azərbaycan elminin və təhsilinin himayədarı olduğunu, bu sahədə çalışanlara, xüsusilə səhiyyə işçilərinə həmişə diqqət və qayğı göstərdiyini xatırladıb. Bildirib ki, Azərbaycanda səhiyyənin inkişafı, universitetin maddi-texniki bazasının möhkəmləndirilməsi və ölkəmizdə tibb kadrlarının hazırlanması məhz ulu öndərin adı ilə bağlıdır.

ATU-nun klinikalarının ümummilli lider Heydər Əliyevin böyük qayğısı sayəsində yaradıldığını söyləyən rektor onun layiqli davamçısı Prezident İlham Əliyevin dəstəyi ilə inşa olunmuş universitetin çoxprofilli tədris-terapevtik və cərrahiyyə klinikalarının ən müasir avadanlıqlarla təchiz olunduğunu, məhz maddi-texniki bazanın möhkəmləndirilməsi nəticəsində rezidentlərlə işləməyin asanlaşdığını diqqətə çatdırıb.

Rezidentlərin elmi-praktiki konfransının əhəmiyyətindən danışan rektor bu sistemə keçidin asan olmadığını vurğulayıb: "Əvvəllər rezidenturanın özü bizim üçün bir xəyal idi və çalışırdıq ki, Azərbaycanda rezidentura sisteminə keçilsin. Mane olan əsas səbəblərdən biri "Təhsil qanunu"nda rezidenturanın nəzərdə tutulmaması idi. Bir sıra ölkələrdə olduq qabaqcıl universitetlərin təcrübələrini öyrəndik. Yeni "Təhsil qanunu" qəbul olunandan sonra rezidentura sisteminə keçdik. Ənənəvi internatura sistemi özünü doğrultmadı. Şübhəsiz ki, bir il ərzində yaxşı mütəxəssis hazırlaya bilməzdik. Rezidentlərimizin ilk elmi-praktiki konfransı ulu öndərimiz Heydər Əliyevin 90 illiyinə həsr olundu. Çünki həmişə Azərbaycanda yüksək ixtisaslı həkim kadrlarının hazırlanmasına ciddi fikir verən ulu öndərin arzusu idi ki, rezidenturaya tez keçək. Bu, tibb sahəsində yüksək ixtisaslı mütəxəssis hazırlamaq üçün bütün dünyanın, Amerikanın, Avropanın qəbul elədiyi bir yoldur. Ölkəmizdə 2011-ci ildən etibarən ali tibb təhsili əsasında həkim mütəxəssislərin hazırlanması məqsədi ilə rezidenturaya qəbul Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən aparılır. Artıq bu sistem üzrə iki dəfə buraxılış olub. Bəzi çatışmazlıqlar olsa da özünü tam doğruldub. Hesab edirik ki, rezidentlər yüksək ixtisaslı mütəxəssis, həkim kimi hazırlanmaqla yanaşı, elmi tədqiqat işlərinə də cəlb olunmalıdır. Materiallara baxdım. Bu il təşkil olunan konfrans Beynəlxalq konfransların tələbatına cavab verən səviyyədədir, çox yaxşı hazırlanıb. Buna görə də mən təşkilat komitəsinə təşəkkür edirəm. Bir də bu konfrans əvvəlkilərdən ona görə fərqlənir ki, bu il ölkəmizin digər bazalarından olan rezidentlər də bu konfransda iştirak edirlər."

Rezidentlərdə elmi vərdişlər aşılamağın vacibliyinə toxunan Ə.Əmiraslanov rezidentura haqqında əsasnamədə də elmi-tədqiqat işləri ilə məşğul olmağa heç bir məhdudiyyətin qoyulmadığını deyib. Başlıca məqsədi bu istiqamətdə rezidentlərin qabiliyyətini üzə çıxarmaqdan ibarət olan konfransın işinə uğurlar arzulayıb.

Konfransda çıxış edən rezidentura şöbəsinin müdiri, dosent Rizvan Məmmədov məlumat verdi ki, hazırda ATU-da 38 ixtisas üzrə rezidenturada 539 nəfər təhsil alır. (Respublikada digər bazalar üzrə rezidentlərin sayı ümumilikdə 1120 nəfərdir) Hal-hazırda ATU-dan 74 rezident Türkiyənin Erciyes, Hacıtəpə, 19 Mays, İstanbul, Ankara və digər universitetlərində, o cümlədən Almaniya, Norveç, İsveç və Fransanın Strasburq universitetndə 3-6 aylıq rotasiya keçirlər. Bu il ölkəmizdə təhsil müddəti 2 və3 il olan 15 ixtisas üzrə 98 nəfər rezident məzun olub ki, onlardan da 34-ü Azərbaycan Tibb Universitetinin məzunlarıdır. Bundan başqa digər bazalardan indiyədək 154 nəfər rezident müxtəlif ixtisaslar üzrə ATU-nun klinikalarında rotasiyada olmuşlar. Sözünə davam edən R. Məmmədov bildirmişdir ki, universitetdə rezidentlərin elmi hazırlığına da xüsusi diqqət yetirilir. Klinikalarda bütün laboratoriya və diaqnostik kabinetlər elmi araşdırma aparmaq istəyən rezidentlərin ixtiyarına verilib.

Konfransa sədrlik edən universitetin elmi işlər üzrə prorektoru, ə.e.x. professor İbrahim İsayev də yüksək ixtisaslı mütəxəssis olmaq arzusu ilə universitetimizə qəbul olunmuş rezidentlərin elmi tədqiqat işlərinə cəlb edilməsini yüksək qiymətləndirib. III elmi-təcrübi konfransın gündəliyində duran məsələləri diqqətə çatdıraraq bu gün çıxış edən hər bir rezidentin gələcəkdə aparıcı mütəxəssis, alim kimi yetişəcəyinə inamını ifadə edib.

Bundan sonra plenar məruzələrin təqdimatına başlanılıb. Plenar iclasda 8 rezidentdən-Saleh Abdullayev, Muşviq Ramazanov, Arzu Poluxova, Elmira Vəliyeva, Sara Qurbanova və başqalarının tibbin müxtəlif sahələri üzrə məruzələri dinlənilib və ətraflı müzakirələr aparılıb.

Daha sonra konfrans işini bölmə iclaslarında davam etdirib.

İki gün davam edən konfransda yekun nitqi söyləyən universitetin elmi işlər üzrə prorektoru, professor İbrahim İsayev bu cür beynəlxalq konfransların universitetimizdə keçirilməsinin artıq bir ənənə şəkli aldığını və gələcəkdə də davam etdiriləcəyini bildirib.

Konfransın yekununda münsiflər heyəti tərəfindən seçilmiş ən maraqlı tezislərin müəlliflərindən 10 nəfərinə xüsusi hazırlanmış plaket, 25 nəfəri diplom və hədiyyələrlə mükafatlandırılıb. Həmçinin konfransın bütün iştirakçılarına "İştirak Sertfikatı" təqdim olunub.

Bundan başqa rezidentlərin bir sıra kafedralarda və klinikalarda əldə etdikləri yeniliklər və yaxından təmasda olduqları xəstələrlə bağlı video çarx nümayiş olunub.

Tədbirin sonunda iştirakçıları xatirə şəkli çəkdiriblər.

**MƏNSUR**

# Fəal tələbələr diplom aldı

**Azərbaycan Tibb Universitetinin (ATU) altı tələbəsi xüsusi diploma layiq görülüb. Onlar təhsil müddəti boyunca universitetin ictimai həyatında nümayiş etdirdikləri fəallığa görə mükafatlandırılıblar.**






Diplomların təqdimetmə mərasimində çıxış edən ATU-nun rektoru, akademik Əhliman Əmiraslanov belə fəal tələbələrin sayının daha çox olduğunu bildirib: “Tibb Universitetinin tələbələri nizam-intizamları, səliqə-səhmanlı olmaları ilə seçilirlər. Bu haqda mən həmişə kənardan da müsbət rəylər eşitmişəm. Əminəm ki, belə fəal tələbələrimizin sayı daha çoxdur. Onlar həmişə keçirilən tədbirlərə qatılır, hər cür ictimai təşəbbüslərdə aktiv iştirak edirlər”. Rektor həmçinin Tibb Universiteti rəhbərliyi tərəfindən tələbələrin yüksək keyfiyyətli təhsil alması üçün hər cür şərait yaradıldığını, yataqxanaların təmir olunaraq istifadəyə verildiyini xatırlatdı.

ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) sədri, dosent Elşad Novruzov universitetdə tələbələrin ictimai fəaliyyəti haqqında məlumat verdi. Onun sözlərinə görə, hazırda ATU-da “FLASHMOB”komandası, “Medical conversation” danışıq klubu, “NƏ? HARDA? NƏ ZAMAN?” oyunu üzrə intellektual klub, “Vətəndaş Cəmiyyəti - DEBAT” ictimai klubu, “Esculap” şən və hazırcavablar klubu fəaliyyət göstərir. Həmçinin, ATU-nun və Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının dəstəyi ilə yaradılan “Medicus”klubları fəaliyyət göstərir.

Daha sonra ATU-nun ictimai həyatında fəal iştirak edən altı tələbəyə diplomlar təqdim olunub. Bunlar Qismət Quliyev, Araz İsmayılov, Burxan Həsənov, Sərxan Şükürov, Şəmsi Nuriyev və Malik Şükürlüdür.

# Ürək-Damar Mərkəzində pulsuz müayinə həftəsi keçirilib

**Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Terapevtik Klinikasının Ürək-Damar Mərkəzində pulsuz müayinə həftəsi keçirilib. May ayının 10-dan 16-dək davam edən pulsuz müayinə həftəsi ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunub. Bu günlər ərzində ümumilikdə 300-dən çox xəstə müayinədən keçib. Müayinələr 4 yüksək ixtisaslı həkim-kardioloq, 3 rezident-kardioloq və peşəkar tibb bacıları tərəfindən aparılıb.**




Qeyd edək ki, Tədris Terapevtik Klinikanın Ürək-Damar Mərkəzi artıq 2 ilə yaxındır ki, yaradılıb. Mərkəzin rəhbəri, doktor Fərid Əliyevin sözlərinə görə, burada yüksək peşəkarlığı ilə seçilən həkim briqadası çalışır: “Mərkəzdə ürək-damar xəstəliklərinin bütün alt sahələri əhatə olunur: koronar patologiyalar, ritm pozğunluqları, orqanizmdəki damarlarda baş verən bütün xəstəliklər və s”.






Fərid Əliyev kompaniya çərçivəsində 100-dən çox xəstəni müayinə etdiyini söylədi: “Ən pis patologiya kimi ürək çatışmazlığı və ciddi pulmonar hipertenziyanın aşkar edilməsini misal çəkə bilərəm. Əməliyyat olunan xəstələrimiz də olub. Mürəkkəb deyilə biləcək əməliyyatlar sırasına ritm pozğunluqlarının ablastiya üsulu ilə ortadan qaldırılması, kəskin insultlu, kəskin infarktlı xəstələrə olunan müdaxilələr daxildir”.

Mərkəzin həkimi Elnur İsayevin sözlərinə görə, pulsuz müayinə kompaniyası çərçivəsində fasiləsiz çalışıblar: “Baxmayaraq ki, biz durmadan müayinə edirik, amma yenə də çatdırmırıq, xəstə axını olduqca çoxdur. Çalışırıq ki, hamıya yetərli vaxt ayıra bilək. İlk günlərdə Bakıdan gələn xəstələrin sayı üstünlük təşkil edirdi. Amma son günlərdə artıq bölgələrdən də xəstə axını gəlməyə başlayıb. Gələnlərin çoxu kifayət qədər ciddi narahatlıqlarla bizə müraciət edirlər”.

Beyləqan rayon sakini Həsən Məmmədov, Ağstafa rayonundan Əvəz Qurbanov və Bakı şəhərindəki 244 saylı məktəbin müəllimi Validə Məmmədova pulsuz müayinə həftəsini təşkil edənlərə minnətdarlıqlarını bildirərək onlara göstərilən tibbi xidmətdən razılıqla danışdılar. Digər pasiyentlər də hərtərəfli müayinələrə görə Ürək Damar Mərkəzinin tibbi personalına və klinika rəhbərliyinə öz təşəkkürlərini çatdırdılar.

# Türkiyənin Selcuk və Azərbaycanın Tibb Universiteti arasında müqavilə imzalanıb

**Mayın 26-da Türkiyənin Selcuk Universitetinin rektoru, professor, dr. Hakkı Gökbelin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Tibb Universitetinin (ATU) qonağı olub.**



ATU-nun rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov qonaqlara ətraflı məlumat verərək hazırda universitetdə 7000-dən çox tələbə və rezident, həmçinin 1000-dən çox xarici ölkə vətəndaşının təhsil aldığını deyib.

Rəhbərlik etdiyi ali tibbi təhsil ocağında 160-dan çox professor, 320 dosent, 800-ə yaxın elmlər namizədi və ümumilikdə 1300 nəfər akademik personalın çalışdığını bildirən rektor Selcuk Universiteti ilə sıx əlaqələrin yaradılması arzusunda olduğunu qeyd edib: “Selcuk Universitetində axırıncı dəfə 1990-cı illərin əvvəllərində olmuşam. O vaxtdan universitetdə çox irəliləyişlər olub. Ümid edirəm ki, Selcuk Universiteti ilə qarşılıqlı əməkdaşlıq edəcəyik”.





Selcuk Universitetinin rektoru, professor dr. Hakkı Gökbel də öz növbəsində rəhbəri olduğu universitetdə 22 fakültənin fəaliyyət göstərdiyini, universitetin tərkibindəki Tibb fakültəsində bütün tibb sahələri üzrə mütəxəssis yetişdirildiyini, universitetdə 80.000 tələbənin təhsil aldığını söyləyib və Azərbaycan Tibb Universiteti ilə daha yaxından tanış olmaqdan məmnunluğunu dilə gətirib: “Çox sevinirəm ki, buradayam, universitetin fəaliyyəti ilə yaxından tanış oldum. Azərbaycan Tibb Universiteti ilə əlaqələri genişləndirməyi nəzərdə tutmuşuq”.

Qeyd edək ki, görüşün sonunda iki universitet arasında qarşılıqlı əməkdaşlıq, tələbə, rezident və mütəxəssis mübadiləsi üzrə müqavilə imzalanıb.

**ATU-nun mətbuat xidməti**

# Azərbaycan Tibb Universitetini əla

## Musazadə Röya Vahid qızı



1992-ci ildə Sumqayıt şəhərində ziyalı ailəsində anadan olub. 1998-2009-cu illərdə Bakı şəhəri Binəqədi rayonu 244 saylı orta məktəbdə təhsil alıb.Təhsil aldığı müddətdə məktəbin qabaqcıl şagirdlərindən olub. Hələ aşağı siniflərdə oxuyarkən Tarix fənni üzrə yarışmada, məktəblərarası keçirilən Azərbaycan dili və ədəbiyyat fənləri üzrə olimpiadada I yerə, «Konstitusiya Əsas Qanunumuzdur» adlı bilik yarışmasında fərqlənmə diplomuna layiq görülüb. Respublika üzrə Biologiya olimpiadasında, dəfələrlə Respublika üzrə keçirilən inşa müsabiqələrində fəal iştirak edib. 2009-cu ildə Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsinə daxil olub. 2013-cü ilin iyul ayında Türkiyənin İstanbul şəhərində, Bağcılar Eğitim və Araşdırma xəstəxanasında uğurlu iş təcrübəsi keçib. 2015-ci ildə ali təhsilini əla qiymətlərlə başa çatdırıb.

Arzusu təhsilini daha da mükəmməlləşdirərək, peşəkar həkim-mütəxəssis olmaq, Vətəninə layiqincə xidmət etməkdir.

## Mehdiyeva Fidan Samir qızı



1993-cü ildə Bakı şəhərində anadan olub. 1999-cu ildə 18 saylı orta məktəbin I sinfinə gedib. Məktəbdə oxuduğu zaman keçirilən fənn olimpiadalarında aktiv iştirak edib. 2010-cu ildə orta məktəbi əla və yaxşı qiymətlərlə bitirərək 546 balla dövlət sifarişi əsasında Azərbaycan Tibb Universitetinin tibbi-profilaktika fakültəsinə daxil olub. Tələbəlik illərində daim öz çalışqanlığı ilə seçilərək lazımi bacarıqları, verilən tapşırıqları böyük həvəslə və məsuliyyətlə yerinə yetirib. Dövlət imtahanlarından əla qiymətlər alaraq universiteti uğurla bitirir. Baza tibb təhsili əsasında aparılan rezidentura imtahanına hazırlaşan Fidan bu imtahanda da uğur qazanaraq gələcəkdə ixtisaslı həkim-mütəxəsis kimi insanlara xidmət etmək niyyətindədir.

## Həsənzadə Sabir Sahib oğlu



1992-ci ildə Salyan şəhərində doğulub. Orta təhsilini 1998-2009-cu illərdə həmin şəhərdə Ə.Kürçaylı adına 7 saylı məktəb-liseydə aldıqdan sonra 646 balla Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə daxil olub. Bu il həmin fakültəni fərqlənmə diplomu ilə başa vurur.

Gələcək planı Türkiyədə uzmanlıq təhsili alıb savadlı həkim olmaqdır.

## Tahirova Ulviyyə Əbil qızı



1991-ci ildə Füzuli rayonunda anadan olub. 1998-ci ildə İmişli rayon N.Nərimanov adına 1 saylı orta məktəbin 1-ci sinfinə daxil olub. Şagirdlərarası keçirilən fənn olimpiyadalarının rayon, Respublika mərhələlərində aktiv iştirak edib, "Xüsusi İstedadlı uşaqlar" bilik yarışmasında 1-ci dərəcəli diploma layiq görülüb.

2009-cu ildə orta məktəbi bitirərək 637 balla Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə daxil olub. Rezidentura imtahanlarının 1-ci mərhələsində 83 bal toplayıb, arzu məqsədlərinə doğru uğurla addımlamaqdadır.

## Məmmədova Günay Əbülfəz qızı



2009-cu ildə Hacıqabul rayon Rəncbər kənd orta məktəbini əla qiymətlərlə bitirib. Elə həmin ildə TQDK tərəfindən keçirilən qəbul imtahanında 655 bal toplayaraq Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsinə daxil olub. Bu uğuruna görə Prezident təqaüdçüsü adına layiq görülüb.

Bu il Günay Tibb Universitetini əla qiymətlərlə bitirir. Ən böyük arzusu gələcəkdə xalqına mama-ginekoloq kimi xidmət etməkdir. Günay həkim kimi formalaşmağında ondan biliyini, qayğısını əsirgəməyən Tibb Universitetinin bütün müəllim kollektivinə öz minnətdarlığını bildirir və gələcəkdə də onların etimadını doğrultmaq, xalqına layiqincə xidmət etmək üçün daima öz üzərində işləyəcəyinə söz verir.

## Bayramova Günay Yusif qızı



1992-ci ildə Bakı şəhərində anadan olub. 1998-ci ildə Sumqayıt şəhərində yerləşən Məhəmməd Füzuli adına "İstedad" liseyində 1-ci sinfə gedib. Oxuduğu müddətdə dərslərində müvəffəqiyyət qazanıb, məktəbin ictimai-siyasi işlərində fəal iştirak edib. Respublika səviyyələrində keçirilən bilik olimpiada yarışlarında yüksək nəticələr əldə edib. 2009-cu ildə Xəzər Universitetinin "Dəqiq elmlər üzrə XI sinif şagirdləri arasında" keçirdiyi olimpiadada kimya fənni üzrə 1-ci dərəcəli diploma təltif olunub.

2009-cu ildə 655 balla ATU-nun I müalicə-profilaktika fakültəsinə qəbul olub. Prezident təqaüdçüsüdür. Oxuduğu müddət ərzində bu adın etimadını doğruldub. I kursdan dekanlıq tərəfindən qrup numayəndəsi təyin olunub və sona qədər dekanlığa yaxından kömək edib. Təhsil aldığı illərdə yay təcrübələrini Türkiyədə, Almaniyada keçirib. Məqsədi kardiologiya ixtisasina yiyələnməkdir. TEC-nin konfransında "Kök hüceyrələrin köçürülməsi" mövzusunda elmi iş götürərək müvəffəqiyyətlə başa çatdırıb.

Gələcək üçün planı təhsilini kardioloq rezident kimi Almaniyada davam etdirməkdir.

## Baxşəliyeva Nərmin Kərim qızı



1993-cü ildə Bakı şəhərində anadan olub. 2009-cu ildə Bakı şəhəri 25 saylı orta məktəbini əla qiymətlərlə başa vuraraq, 479 balla Naxcivan Dövlət Universitetinin tibbi profılaktika fakültəsinə daxil olub. Sonra bir semestrlik təhsil müddətindən imtina edib, 2010-cu ildə 547 balla ATU-nun tibbi biologiya fakültəsinə daxil olub. 2011- 2012 -ci illərdə "Müasir Elmi tibbi tədqiqatların istiqamətləri və əsasları" layihəsində iştirak edib sertifikat alıb. 2011-2012-ci illərdə keçirilən "2-ci Azərbaycan-Almaniya Cərrahiyə günləri" və "3-cü Azərbaycan-Almaniya Cərrahiyə günləri"ndə iştirak edib. 2013-cü ildə Türkiyənin İstanbul şəhərində Haseki Eğitim və Araşdırma Hastanesində ginekologiya ixtisası uzrə praktika keçib.

İmtahanlarını müvəffəqiyyətlə verərək təhsilini başa vurub. Təhsilini Türkiyə Cümhuriyyətinin İstanbul Universitetində genetika ixtisası üzrə davam etdirmək niyyətindədir.

## Rəhimli Gülnarə İlham qızı



1991-ildə Bakı şəhərində anadan olub. 1998-ildə Binəqədi rayon 217 saylı məktəbə gedib. Rayon və respulikada keçirilən bir sıra olimpiadalarda aktiv iştirak edib. Keçirilən yarışlarda "Xüsusi istedadlı uşaqlar" bilik yarışmasında birinci yerə layiq görülüb. 2007-ci ildə "Gənc istedadlar" liseyinə daxil olub. 2009-cu ildə 619 balla ATU-nun müalicə profilaktika fakültəsinə qəbul olub.

2011-2012-ci illərdə "Müasir Elmi Tibbi tədqiqatların istiqamətləri və əsasları" layihəsində iştirak edib. 2013-cü ildə İstanbul şəhərində ginekologiya ixtisası üzrə praktika keçib. Arzusu təhsilini Tükiyədə davam etdirməkdir.

## Qaziyeva Zöhrə Qabil qızı



1993-cü ildə Zaqatala rayonunun Suvagil kəndində anadan olub. 1999-cu ildə Zaqatala şəhəri Ş.Qurbanov adına 3 saylı orta məktəbin I sinfinə gedib. 2010-cu ildə həmin məktəbi əla qiymətlərlə bitirib və 624 balla ATU-nun stomatologiya fakültəsinə daxil olub. Məktəbdə oxuyarkən dəfələrlə fənn olimpiadalarında iştirak edib, fizika fənni üzrə I yerə layiq görülüb. Oxuduğu illərdə fəal iştirakına görə diplom və sertifikatlarla təltif olunub. Universitetdə oxuduğu müddətdə terapevtik stomatologiya fənnindən elmi iş üzrə diplomla təltif olunub. İmtahanları müvəffəqiyyətlə verib və stomatologiya fakültəsinin əlaçı tələbələrindəndir.

Arzusu gələcəkdə nailiyyətlər qazanmaq və həkim-stomatoloq adını layiqincə daşımaqdır.

## Rəşidli Nurəddin Fəxrəddin oğlu



1993-cü ildə İsmayıllı rayonunun Talıstan kəndində anadan olub. 1999-cu ildə Şamaxı şəhər Cəmo Cəbrayılbəyli adına 5 saylı orta məktəbin 1-ci sinfinə gedib. 2007-ci ildə Şamaxı şəhər texniki, humanitar və təbiət fənləri təmayüllü liseydə oxuyub. 2010-cu ildə liseyi əla qiymətlərlə bitirərək TQDK-nın IV qrup üzrə keçirtdiyi qəbul imtahanında 630 bal toplayaraq Azərbaycan Tibb Universitetinin stomatologiya fakültəsinə qəbul olub. Arzusu peşkar həkim olmaqdır.

## Məmmədova Nərmin Elçin qızı



1992-ci ildə Bakı şəhərində anadan olub. 1998-ci ildə 264 nömrəli məktəb-liseyin I sinfinə gedib, 2006-cı ildə 167 nörməli məktəbin 9-cu sinfində təhsilini davam etdirib, 2010-cu ildə həmin məktəbi bitirib. Məktəbdə oxuyarkən dəfələrlə fənn olimpiadalarında iştirak edib. Fizika, kimya və riyaziyyat fənnləri üzrə I və II yerlərə layiq görülüb. 561 balla Azərbaycan Tibb Universitetinin stomatologiya fakültəsinə daxil olub.

Arzusu savadlı mütəxəssis kimi gələcəkdə şəxsi klinikasını təşkil etməkdir.

# qiymətlərlə başa vuran məzunlarımız

## Kazımlı Ülviyyə Tahir qızı



1991-ci ildə Zəngilan rayonunda ziyalı ailəsində anadan olub. 1978-ci ildə Binəqədi rayonundakı 246 saylı orta məktəbin I sinfinə gedib. Məktəbdə oxuduğu illər ərzində mütəmadi olaraq müxtəlif fənlər üzrə şəhər və respublika olimpiadalarında iştirak edib.
2009-cu ildə həmin məktəbi bitirərək 680 balla ATU-nun müalicə işi fakültəsinə daxil olub. Topladığı yüksək bala görə Prezident təqaüdünə layiq görülüb və 6 il müddətində bütün imtahanlardan "əla " qiymətlər alaraq bu adı qorumağı bacarıb.
Universitetdə təhsil aldığı illərdə 2 dəfə Türkiyənin İstanbul şəhərində tibbi təcrübə keçib.
Rus, ingilis və alman dillərini bilir. Boş vaxtlarında həm bədii kitablar, həm də müxtəlif tibbi məqalələr oxumağı sevir.
Hal-hazırda rezidentura təhsili üçün TUS imtahanına hazırlaşır. 2014-cü ildə bu imtahanın birinci mərhələsi olan YDS (xarici dil) imtahanını müvəffəqiyyətlə verib.
Hədəfi Türkiyədə pediatriya ixtisası üzrə uzmanlıq təhsili almaqdır.
Həkimliyin çox çətin, zəhmət tələb edən bir sənət olduğunu deyərək bütün tələbələrə bu çətinlikdən qorxmamağı, daim oxumağı, öz üzərlərində işləməyi, hədəflərinə doğru addımlamağı arzulayır.

## Məmmədova Elvira Vidadi qızı



1992-ci ildə Naxçıvan MR-nın Şərur rayonunda anadan olub. 1998-ci il Şərur rayon 2 saylı orta məktəbə gedib. 2009-cu ildə həmin məktəbi fərqlənmə attestatı ilə bitirib.2009-cu ildə TQDK-nın kecirmiş olduğu qəbul imtahanlarında 671 bal toplayaraq Prezident təqaüdü ilə ATU-nun I müalicə-profilaktika fakültəsinə daxil olub. 2013-cü ildə İstanbul Bağcılar Eğitim və Araşdırma xəstəxanasında yay praktikası kecib. Bu il rezidentura üzrə keçirilən imtahanlarda iştirak edərək birinci mərhələdən müvəffəqiyyət əldə edib.
ATU-nu fərqlənmə diplomu ilə bitirir.

## Soltanova Lalə Tacəddin qızı



2009-cu ildə Sumqayıt şəhər N.Gəncəvi adına T.T.E. liseyini bitirərək elə həmin il 635 balla ATU-nun II müalicə-profilaktika fakültəsinə qəbul olub. Universitetin Tələbə Elmi Cəmiyyətinin konfranslarında fəal iştirak edib. Yay istehsalat praktikasını İstanbulun Egitim Arşdırma xəstəxanasında keçib.
Əsas hədəfi təhsilini xaricdə davam etdirmək və ölkəmizə savadlı həkim olaraq qayıtmaqdır.

## Quliyev Qismət Məsmun oğlu



1991-ci ildə Bakı şəhərində anadan olub. 2008-ci ildə Binəqədi rayonu 99 saylı orta məktəbi müvvəfəqiyyətlə bitirib. 2009-cu ildə 640 balla Azərbaycan Tibb Universitetinin I Müalicə-profilaktika fakültəsinə daxil olub. 2010-cu ildən I Müalicə-profilaktika Tələbə Həmkarlar Təşkiltının sədri və 2011-ci ildən isə universitet THİK sədrinin müavini vəzifəsində fəliyyət göstərir. Təhsil aldığı müddətdə bir sıra sertifikat və diplomlara layiq görülüb. 2015-ci ildə Tibb Universitetinin ictimai həyatında göstərdiyi aktiv fəaliyyətə görə ATU-nun rektoru, akademik Ə.Əmiraslanov tərəfindən xüsusi diplomla təltif olunub.
Bu il universiteti fərqlənmə diplomu ilə bitirir.

## Səfərov Cavid Alqış oğlu



1993-cü ildə Gəncə şəhərində həkim ailəsində anadan olub. 2010-cu ildə Baki şəhərindəki 276 saylı məktəbi bitirib. Elə həmin il ATU-nun stomatologiya fakültəsinə daxil olub.
Universitetdə təhsil aldığı müddətdə dərslərdə xüsusi fəallığı ilə seçilib. Eyni zamanda qrup və patok yoldaşları ilə daim səmimi münasibət qurub. Universitetin tədbirlərində stomatologiya fakültəsini layiqincə təmsil etməyə çalışıb.
Müasir stomatologiyaya aid bilik və praktiki vərdişlərini artıraraq müəllimlərinin ona göstərdiyi etimadı doğruldub.
2015-ci ildə universiteti müvəffəqiyyətlə bitirərək peşəkar həkim-stomatoloq kimi insanlara nümunəvi xidmət göstərmək arzusundadır.

## Əlinağıyeva Tuğraxanım Həsən qızı



1992-ci ildə Sumqayıt şəhərində anadan olub. 1998-ci ildə «İstedad» liseyinin 1-ci sinfinə gedib. Məktəb illərində dəfələrlə fənn olimpiadalarında iştirak edib. 2009-cu ildə məktəbi əla qiymətlərlə bitirərək 670 balla Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsinə daxil olub və Prezident təqaüdünə layiq görülüb.
Arzusu yüksək səviyyəli mütəxəssis kimi yetişmək, qazandığı bilik və bacarıqlarından xalqın sağlamlığı naminə istifadə etməkdir.

## Bağırlı Türkay Əlikram qızı



1993-cu ildə Cəlilabad rayonunda anadan olub. 1999-cu ildə Cəlilabad rayon 8 saylı orta məktəbinin 1-ci sinfinə gedib. 2010-cu ildə orta təhsilini əla qiymətlərlə başa vuraraq, elə həmin il 571 balla Azərbaycan Tibb Universitetinin tibbi biologiya fakültəsinə daxil olub. 2015-ci ildə Dövlət Buraxılış imtahanlarını müvəffəqiyyətlə verərək təhsilini əlaçı tələbə kimi bitirir. Həmçinin, bu il rezidentura üzrə imtahanın birinci turunda 70 bal toplayıb, 2-ci turda iştirak etmək şansı qazanıb.
Anası Rəna xanım ali təhsilli həkimdir. Hal-hazırda Cəlilabad Rayon Mərkəzi xəstəxanasında həkim işləyir. Qardaşı Miryaqub isə ATU-nun Hərbi Tibb fakültəsinin IV kurs tələbəsidir.

## Kərimli Həbibə İsgəndər qızı



1991-ci ildə Sumqayıt şəhərində anadan olub. 2008-ci ildə V.İbrahim adına 35 saylı şəhər orta məktəbini bitirmiş və 2009-cu ildə ATU-nun pediatriya fakültəsinə daxil olmuşdur.
Universiteti fərqlənmə diplomu ilə bitirən Həbibənin arzusu gələcəkdə bir həkim kimi daha çox çalışıb xalqına layiqli xidmət etməkdir.

## Şeydayeva Zeylanə Elxan qızı



1992-ci ildə Bakı şəhərində anadan olub. 1998-ci ildə 30 saylı məktəbin I sinfinə gedib. Şagird olduğu müddətdə fənn olimpiadalarında iştirak edib və kimya fənni üzrə respublika üçüncüsü adına layiq görülüb. 2009-cu ildə həmin məktəbi fərqlənmə attestatı ilə bitirərək yüksək balla ATU-nun I müalicə işi fakültəsinə qəbul olub. Tələbəlik illərində TEC-in tədbirlərində aktiv iştirak edib. Bir neçə dəfə Türkiyənin İstanbul şəhərində tibbi təcrübə keçib. İngilis və türk dillərini sərbəst bilir.
Universiteti əla qiymətlərlə bitirir. Təhsilini Türkiyə Cümhuriyyətində davam etdirərək ixtisasının uzmanı olmaq arzusundadır.

## Xəlilli Səxavət Xalid oğlu



1993-cü ildə Zərdab rayonunda anadan olub. 1999-cu ildə Həsən bəy Zərdabi adina şəhər 1 saylı orta məktəbin I sinfinə gedib. Orta məktəbdə oxuyarkən rayonda keçirilən fənn olimpiadasında biologiya fənni üzrə rayon birincisi olub. 2010-cu ildə məktəbi bitirərək Azərbaycan Tibb Universitetinin tibbi-profilaktika fakültəsinə daxil olub. I kursdan qrup nümayəndəsi olmaqla yanaşı, universitetin ictimai həyatında yaxından iştirak edib və fəallığı ilə seçilib. O, son imtahanlarını əla qiymətlərlə verərək məzun adını alıb. Universitet xatirələrini unutmayacağını deyən Səxavət bütün müəllimlərə təşəkkürünü bildirir.
O, rezidentura imtahanının 1-ci mərhələsindən uğurla keçərək imtahanın 2-ci mərhələsinə hazırlaşır.

## Əzizli Cahangir Şahin oğlu



1993-cü ildə Şəki şəhərində anadan olub. 2010-cu ildə Şəki şəhər 14 saylı orta məktəbini əla qiymətlərlə bitirib. Orta məktəbdə kimya fənni üzrə olimpiadaların rayon və şəhər turlarında iştirak edərək 1-ci yerə layiq görülüb. Həmçinin bir çox şəhər tədbirlərində və elmi debatlarda fəal iştirak edərək fəxri fərman,sertifikat və mükafatlara yiyələnib. Elmlə yanaşı, idmanda da özünü sınayıb. Stolüstü tennis üzrə regional səviyyədə məktəblərarası yarışda birincilik əldə edib. 2010-cu ildə 626 balla ATU-nun stomatologiya fakültəsinə daxil olub. 2014-cü ilin iyul ayında Ok meydanı Ağız və Diş Hastalıkları klinikasında iş təcrübəsi keçib. Arzusu ATU-nu bitirdikdən sonra xalqına və vətəninə layiqli həkim-stomatoloq olmaq, insanların sağlamlığı keşiyində dayanmaqdır.

# Dövlət imtahanları uğurla başa çatdı

**Dövlət-buraxılış imtahanları artıq sona çatıb. İmtahanların gedişatında obyektivlik və şəffaflıq gözlənilmiş, hər bir tələbənin hazırlaşıb sərbəst cavab verməsi üçün əlverişli şərait yaradılmışdır.**



İmtahanların nəticələri ilə daha yaxından tanış olmaq, builki məzunlar haqqında statistik məlumatlar almaq üçün I müalicə işi fakültəsinin dekanı, professor Abuzər Qazıyev, II müalicə işi fakültəsinin dekanı, dosent Taryel İsmayılov, pediatriya fakültəsinin dekanı, dosent Nəriman Nağıyev, tibbi-profilaktika və tibbi-biologiya fakültəsinin dekanı, dosent Aydın Məmmədov, stomatologiya fakültəsinin dekanı, professor Zöhrab Qarayev, əczaçılıq fakültəsinin dekanı, professor Tahir Süleymanov və hərbi tibb fakültəsinin rəisi, tibb xidməti polkovnik-leytenantı Fəxrəddin Ağayevlə əlaqə saxladıq.

**Abuzər Qazıyev:**



Bu il I müalicə işi fakültəsinin 242 məzunu olacaq. Onlardan 212-si ölkə, 30-u isə xarici vətəndaşlardır. Məzunlardan 27-si universiteti fərqlənmə ilə bitirir ki, onlardan 6-sı Prezident təqaüdçüsüdür. Tələbələrin 80 faizdən çoxu yaxşı və əla qiymətlərlə universiteti başa vurur.

**Taryel İsmayılov:**

II müalicə işi fakültəsini bu il 258 nəfər bitirir. Bunlardan 212-si Azərbaycan, 26-sı rus və 20-si ingilis bölməsinin məzunudur. Bu məzunların sırasında 7-si Prezident təqaüdçüsüdür.

Qeyd edək ki, hər iki fakültənin tələbələri cərrahi xəstəliklər, daxili xəstəliklər, mamalıq və ginekologiya fənlərindən dövlət imtahanları veriblər.

**Nəriman Nağıyev:**



Pediatriya fakültəsini bu il 158 nəfər bitirir. Bu məzunların sırasında 4 nəfər fərqlənmə diplomuna layiq görülüb.

Tələbələr uşaq xəstəlikləri və uşaq cərrahlığı fənlərindən dövlət imtahanları veriblər. Bu il keçirilən imtahanların 78,5% keyfiyyət göstəricisi vardır. Bu baxımdan 45 nəfər imtahanları hər iki fəndən əla, 79 nəfər "əla" və "yaxşı", 34 nəfər isə "kafi" qiymətlərlə başa vurublar.

**Zöhrab Qarayev:**



Stomatologiya fakültəsini 170 nəfər tələbə başa vursa da, 138 tələbə bitirir. 32 nəfərin akademik borcu olduğuna görə imtahana buraxılmayıb. Məzunlardan 97 nəfəri Azərbaycan vətəndaşı, 73 nəfəri isə əcnəbidir. Builki məzunlar dörd fəndən semestr imtahanı, terapevtik stomatologiya, ortopedik stomatologiya və ağız, üz-çənə cərrahiyəsi fənlərindən yekun dövlət imtahanı veriblər. İmtahanlar iki mərhələdən-bacarıqlar və nəzəri biliklər hissəsindən ibarət olub.

**Aydın Məmmədov:**



Tibbi profilaktika və tibbi biologiya fakültəsində məzunlar tibbi profilaktika və tibbi biologiya ixtisası üzrə dövlət-buraxılış imtahanları veriblər.

Tibbi profilaktika ixtisası üzrə 41 nəfər dövlət imtahanlarına buraxılmalı idi. Aşağı kurs fənlərindən akademik borcu olduğu üçün 3 nəfər imtahanlara buraxılmadı. Beləliklə, dövlət-buraxılış imtahanlarına buraxılan 38 nəfərdən 33 nəfəri Azərbaycan, 5 nəfəri isə rus bölməsindəndir. Məzunlar gigiyena və epidemiologiya fənnindən imtahan veriblər.

Tibbi biologiya ixtisası üzrə cari tədris ilində son kursda 29 tələbə təhsil alırdı. Əvvəlki tədris illərdən akademik borcları qalan, kreditləri toplaya bilməyən 2 tələbə təkrar dinləmələrə cəlb edilərək həmin borclarını ödədilər və onlar da bu il dövlət-buraxılış imtahanlarına buraxıldılar. Beləliklə, tibbi biologiya ixtisası üzrə dövlət imtahanlarında iştirak edən 31 nəfər biokimya və biofizika fənlərindən imtahan verdilər.

Təhsilə kredit sistemi tətbiq olunduğundan imtahanlar 2 mərhələdə aparılır. I mərhələdə təcrübi bacarıqlar, II mərhələdə isə test üsulu ilə nəzəri biliklər yoxlanılır. Xüsusi meyarlarla hər bir tələbə 5 bacarıq nümayiş etdirir. Hər bir bacarıq 10 ballıq şkala ilə qiymətləndirilir. Bacarıq imtahanlarından tələbələr 50 bal, həmin fəndən nəzəri kompyuter imtahanı verdikdə də 50 bal yığa bilərlər. Əgər təcrübi bacarıq imtahanından tələbə uğurla keçmirsə, o, nəzəri imtahanlara buraxılmır.

Qayda belədir ki, hər iki imtahandan toplanan ballar cəmlənir və fənn üzrə yekun bal müəyyənləşdirilir. Fənn üzrə yekun bal 100 ballıq şkala ilə qiymətləndirilir. Nəzəri imtahanda tələbələrə kompyuter vasitəsilə 50 sual verilir. Təhsil Nazirliyinin təlimatına uyğun olaraq tələbə 17 baldan aşağı bal toplayırsa, həmin fəndən imtahanı verməmiş hesab olunur. 2 mərhələdə topladığı balların cəmi 51-dən az olarsa, tələbə yenə qeyri-kafi almış olur və məzun statusu almır.

Bu il məzunlar hər iki ixtisas üzrə dövlət imtahanlarını uğurla verərək müvafiq qaydada həkim və həkim-bioloq adına layiq görülüblər.

**Tahir Süleymanov:**



Əczaçılıq fakültəsini 62 tələbə bitirir. Lakin 50 tələbə diplom müdafiəsinə buraxılıb. 12 nəfər isə akademik və maliyyə borclarına görə müdafiəyə buraxılmayıb. 3 nəfər isə ötən ildən qalan məzunlardır. Bununla da diplom müdafiəsinə buraxılan 53 tələbənin 41-i yerli, 12 nəfəri əcnəbi tələbələrdir. Məzunlar toksikoloji kimya, əczaçılıq kimyası, farmakoqnoziya, əczaçılığın təşkili və əczaçılıq texnologiyası fənlərindən diplom müdafiəsi edib.

**Fəxrəddin Ağayev:**



Şəffaflıq və tələbkarlıq şəraitində keçirilmiş imtahanlarda heç bir münaqişə halı yaranmamışdır. Xırda narazılıqlar operativ olaraq Dövlət Attestasiya Komissiyası tərəfindən yerindəcə həll edilmişdir.

Ali Tibb tədris müəssisələrində dövlət imtahanları haqqında "Əsasnamə" və "Gənc mütəxəssislərin dövlət buraxılış imtahanlarının keçirilməsi haqqında" təlimata müvafiq olaraq, Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmri və Azərbaycan Tibb Universiteti rektorunun 185/T saylı 10 aprel 2015-ci və 118/T saylı 02 mart 2015-ci il tarixli əmrlərinə əsasən Hərbi Tibb Fakültəsində dövlət buraxılış imtahanları keçirilmişdir.

2014/2015-ci tədris ilində Hərbi Tibb Fakültəsinin VI kursunda 82 və Hərbi Tibb Məktəbinin II kursunda 38 kursant təhsilini başa çatdırmışdır.

İmtahan biletləri yenidən tərtib olunaraq təsdiqlənmiş, imtahan cədvəlləri vaxtında Dövlət imtahan komissiyasının üzvlərinə çatdırılmışdır. İmtahana aidiyyətli kafedralar öz əyani vasitələrini imtahan götürüləcək auditoriyalarda nizami şəkildə yerləşdirmişlər.

Dövlət Attestasiya komissiyasının sədri Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyevin rəhbərliyi altında imtahanların gedişində obyektivlik və aşkarlıq gözlənilmiş, hər bir kursantın sərbəst hazırlaşıb cavab verməsi üçün şərait yaradılmışdır.

Dövlət imtahanı hər üç fənn üzrə müvəffəqiyyətlə başa çatmış Hərbi Tibb Fakültəsi üzrə 4 kursant bütün fənlərdən "əla", 70 kursant isə "əla" və "yaxşı", Hərbi Tibb Məktəbi üzrə isə 5 kursant "əla" və 29 kursant isə "əla" və "yaxşı" qiymətlər almışlar.

* * *

Yaz-semestr imtahanlarına gəldikdə isə Virtual Test Mərkəzinin direktoru, dosent **Şahin Bayramovun** bildirdiyinə görə, imtahanlar bu ayın 11-dən 29-na qədər davam edib. Bu



müddət ərzində imtahanlarda 5000-ə yaxın tələbənin iştirak etdiyini bildirən Şahin müəllim təkcə Azərbaycan bölməsi üzrə tələbələrin 4 kursda 160-a yaxın fəndən imtahan verdiyini qeyd etdi.

İmtahanlar başlayan gündən hörmətli rektorumuz, millət vəkili, akademik Əhliman Əmiraslanov dəfələrlə "Virtual Test Mərkəzi"nə gələrək tələbələrlə görüşüb, onların imtahanla bağlı fikirlərini dinləyib, problemləri ilə yaxından maraqlanıb.

**Arif MƏMMƏDLİ**

# "UNİVERSİTETİMİZDƏ MİNDƏN ARTIQ ƏCNƏBİ TƏLƏBƏ TƏHSİL ALIR"

**Xarici tələbələrlə iş üzrə fakültənin dekanı, professor Gülər Seyidovanın da fikirləri bizim üçün maraqlı oldu. Onun sözlərinə görə, ATU-da hazırda 23 ölkədən 1000-dən artıq tələbə təhsil alır.**



Bu il onların 154-ü təhsilini başa vurduğunu, onlardan birinin əlaçı olduğunu qeyt etdi: "Mən 2007-ci ildə bu fakültədə dekan işləyəndə 267 əcnəbi tələbə təhsil alırdı, hazırda bu göstərici 1000-i keçib. Hələ universitetimizdə ixtisasları artıranların, doktorantların da sayını tələbələrin sayına əlavə etsək, böyük rəqəm alınar. İlbil əcnəbi tələbələrin universitetimizə marağını nəzərə alsaq, bunu yalnız bizim nailiyyətimizin bariz nümunəsi hesab etmək olar."

Ən çox üstünlüyün Türkiyə və İran vətəndaşlarının təşkil etdiyini bildirən Gülər xanım, Avropa ölkələri və ABŞ vətəndaşlarının da ATU-da təhsil aldığını vurğuladı.

Dekan həmçinin əcnəbi tələbələrə göstərilən qayğıdan danışdı və onların yataqxana ilə təchiz olunduğunu bildirdi. Təmirə dayanmış və hər cür şəraitlə təmin olunacaq bir yataqxananın da növbəti tədris ilindək istifadəyə veriləcəyinə toxundu. Tələbələrin kitabxana, oxu zalı, virtual test mərkəzi, idman hovuzundan və s. sərbəst şəkildə istifadə etdiyini bildirən Gülər xanım əcnəbilərin basketbol yarışında Azərbaycan üzrə 1-ci yeri tutduğunu qeyd etdi.

# Birinci Avropa Oyunları zamanı qonaqlara Azərbaycan Tibb Universitetinin 400 tələbəsi ilkin tibbi xidmətlər göstərəcək

**İlk Avropa Oyunlarının başlamasına çox az bir zaman qalıb. Bu oyunlara ölkəmizdə ciddi şəkildə hazırlıq gedir. Bu əlamətdar gündə Azərbaycan Tibb Universitetinin tələbələri də könüllü iştirak edəcəklər. Bu barədə qəzetimizə məlumat verən Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Elşad Novruzov minə yaxın tələbənin könüllü olaraq iştirakçılara tibbi yardım göstərəcəyini bildirdi. Yuxarı kurslarda təhsil alan 400 tələbənin isə həkim köməkçisi kimi fəaliyyət göstərəcəyini diqqətimizə çatdırdı.**

Baku 2015
1st EUROPEAN GAMES

Sonra tələbələrin bir il ərzində həyata keçirdiyi layihələrdən söhbət açdı. Bildirdi ki, Xocalı soyqırımı ilə əlaqədar flaşmob və rəsm sərgisi keçirilib: "Soyqırımla bağlı keçirilən layihəyə Türkiyə, İran və Sudandan olan tələbələr də qoşuldu. Rəsm sərgisində isə 12 tələbənin 60-a yaxın əsəri nümayiş etdirildi və əsərlər sərgiyə gələnlərin ciddi marağına səbəb oldu." E.Novruzov Ulu öndər Heydər Əliyevin 92-ci ildönümü ilə əlaqədar olaraq bir qrup tələbənin xalq artisti Zülfiyyə Xanbabayevanın səsləndirdiyi "Azərbaycan" mahnısını işarət dilində ifa ediklərini və bu barədə video-rolik hazırladıqlarını qeyd etdi.

"Ekstremal idman növləri üzrə klubumuzun üzvlərindən olan 10 tələbə bu il Qubada yerləşən "Heydər zirvəsi" nə təşkil olunan yürüşdə iştirak edərək 3751 metr hündürlük zirvəyə universitetimizin loqosunu taxdılar. Tələbələrimiz həmçinin Medical Conver – danışıq klubunu yaradıblar. Bu klubun üzvləri hər şənbə tibbi mövzuların müzakirəsini ingilis dilində aparır və hər həftə iştirakçıların sayı artır."

E.Novruzov sonda Əhliman müəllimin tələbələrə olan diqqət və qayğısından da söhbət açdı. Tələbələrin həm rektor, həm də rəhbərlik tərəfindən xüsusi qayğı ilə əhatə olunduğunu qeyd etdi. Bu yaxınlarda universitetin ictimai həyatında fəal iştirakına görə 6 tələbənin Əhliman müəllim tərəfindən xüsusi mükafatla təltif olunmasını bu qayğının bariz nümunəsi olduğunu vurğuladı.

**Qabil ABDULLAYEV**

# «Şən və Hazırcavablar" komandası yaradıldı

Azərbaycan Tibb Universitetinin (ATU) Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) nəzdində "Şən və Hazırcavablar" komandası yaradıldı.



ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsnin sədri Elşad Novruzov uzun fasilədən sonra bu komandanı yenidən yaratmaq qərarına gəldiyini dedi. O, bu tələbələrin həvəsli və istedadlı olduğunu nəzərə alaraq belə bir addım atdığını qeyd etdi.

Komandanın əsas idarə heyəti 7 nəfərdən ibarətdir. Əsas idarə işlərinə I müalicə-profilaktika fakültəsinin tələbəsi Aytən Yusifzadə başçılıq edir. Komandanın üzvləri I müalicə-profilaktika fakültəsinin tələbələri - Diran Şahin, Bayram Bayramlı, II müalicə-profilaktika fakültəsinin tələbələri - İsmayıl Əliyev, Nurxan Şamilov, Rəhman Ələsgərli və Hərbi Tibb Fakültəsinin tələbəsi Səhrab Mayılovdur.

Elşad Novruzovun sözlərinə görə, ümumilikdə komandada 30-40 tələbə iştirak edir: "Hazırda onlar müxtəlif mövzular üzrə məşqlərlə məşğuldurlar. Komanda üzvlərinin çoxu teatr və musiqi yönümlüdür. Həmçinin, videoçarxlar və monoloqlar hazırlamaq planlaşdırılır. Monoloqlar əsasən, tələbə həyatı, onların qayğıları, üzləşdikləri problemlərdən bəhs edəcək".

Qeyd edək ki, "Şən və Hazırcavablar" komandası əsasən şənbə və bazar günləri məşq edir. Artıq bu semestr tədris ilinin sonu olduğu üçün komanda öz fəaliyyətinə, yeni yeni layihələrin təqdimatına yeni tədris ilindən etibarən start verəcək.

**ATU-nun mətbuat xidməti**

# İbrahim Mirzə oğlu Qafarov



**Azərbaycan Tibb Universitetinə ağır itki üz vermişdir. Universitetin ümumi cərrahlıq və anesteziologiya kafedrasının dosenti, tibb elmləri namizədi İbrahim Mirzə oğlu Qafarov ömrünün 75-ci ilində qəflətən vəfat etmişdir.**

İ.Qafarov 1940-cı ildə Astara rayonunda qulluqçu ailəsində anadan olmuşdur. O, 1958–ci ildə Bakı şəhər 1 saylı məktəbi bitirmiş və elə həmin il N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. Tibb İnstitutunda oxumaqla yanaşı, E.Əfəndiyev adına xəstəxanada orta tibb işçisi kimi çalışmışdır.

İ.Qafarov 1964-cü ildə institutu bitirdikdən sonra AMEA-da akademik M.Topçubaşovun yaradıcı qrupunda baş laborant və kiçik elmi işçi vəzifələrində çalışmışdır. 1966-cı ildə AMEA-nın Fiziologiya İnstitutunda cərrahiyyə ixtisası üzrə aspiranturaya daxil olmuşdur.

O, 1968-ci ildə akademik M.Topçubaşovun rəhbərliyi altında vaxtından əvvəl namizədlik dissertasiyasını müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsi almışdır.

İbrahim müəllim 1969-cu ildə Tibb İnstitutunun ümumi cərrahlıq və anesteziologiya kafedrasında assistent, 1989-cu ildən indiyədək dosent vəzifəsində işləmişdir.

1973-1974-cü illərdə Moskva şəhərində ingilis dilində Beynəlxalq tibb fakültəsini bitirdikdən sonra Həbəşistanın Əddis-Əbəbə universitetinin kollecində cərrahiyə kafedrasında privat-professor vəzifəsində çalışmışdır.

1989-1991-ci illərdə ATU-nun təsərrüfat hesablı elmi-tədqiqat bölməsində müdir işləmişdir.

1998-2000-ci illərdə isə Səudiyyə Ərəbistanının Al-Davadmi və Məkkə şəhərlərinin mərkəzi klinikalarında cərrah kimi fəaliyyət göstərmişdir.

2000-2005-ci illərdə ATU-nun ümumi cərrahiyyə və anesteziologiya kafedrasının filial müdiri işləmişdir.

O, istedadlı müəllim olmaqla yanaşı, azərbaycan, ingilis və rus dillərində müasir tələblərə cavab verən yüksək səviyyəli mühazirələr oxumuş, elmi-praktik məşğələlər aparmışdır. Dosent İ.Qafarov universitetin və fakültənin ictimai həyatında yaxından aktiv iştirak etmiş, kafedranın tələbə elmi cəmiyyətinə uzun müddət rəhbərlik etmişdir.

Dosent İ.Qafarov 64-dən artıq elmi məqalənin, metodik tövsiyyələrin və səmərələşdirici təkliflərin müəllifi olmaqla yanaşı, Tibb Universitetində buraxılan iki elmi toplunun redaktoru olmuşdur.

İ.Qafarov uzun illər M.Nağıyev adına Təcili Tibbi Yardım Xəstəxanasında məsul növbətçi-həkim vəzifəsində çalışmışdır.

O, həm də gözəl ziyalı olmaqla yanaşı, qayğıkeş ailə başçısı idi. İbrahim müəllimin yeganə qız övladı filologiya elmləri doktorudur. İspaniyada yaşayır.

Dosent İ.Qafarovun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq. Onun birgə çalışdığı doğma kollektiv və fakültəmizin əməkdaşları qafarovlar ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin, qəbri nurla dolsun! !**

*II mülicə-profilaktika fakültəsinin dekanlığı*

# Komandamız yenə super kubokun sahibi olub

**Məlumat verdiyimiz kimi bu il mart ayının 4- dən mayın 8-dək Respublikamızın 25 ali məktəb tələbələri arasında keçirilmiş Universiadada universitetimizin idman klubu komandasının hesabında 568 xal toplayaraq birinci yerə layiq görülmüş və Super Kubokun sahibi olmuşdur.**



Çox sevindirici haldır ki, artıq 24 ildir ki, universitetimizin komandası hər iki ildən bir Respublikamızda keçirilən Universiadada ardıcıl olaraq birinci yeri tutmuşdur.



Xüsusi qeyd etmək lazımdır ki, universitetimizin rektoru, çox hörmətli akademik Əhliman Əmiraslanovun idmançılarımıza göstərdiyi diqqət və qayğı sayəsində tələbələrimiz ali təhsil müəssisələri arasında idmanın 15 növü üzrə keçirilən yarışlarda bu yüksək nəticəyə nail olublar. Bu illər ərzində komandalarımız üçün yaradılan şərait, onların daim yarışlarda fəal iştirak etmələri, bu yarışların maliyyələşməsi və iştirakçıların idman geyimləri ilə təmin olunması işində həmişə Əhliman müəllimin yaxından köməyini hiss etmişik.

Bu qələbənin qazanılmasında bədən tərbiyəsi və idman kafedrasının müdiri, professor Kamal Kəbirlinskinin və idman klubunun sədri Sevinc İsayevanın əməyi xüsusi qeyd edilməlidir.Onların rəhbərliyi nəticəsində müəllim və məşqçilər yüksək fəallıq göstərmişlər.

Azərbaycan Tibb Universiteti idman klubunun idarə heyətinin yığıncağındakı qərara əsasən II müalicə profilaktika VI kurs, 221-ci qrup tələbəsi Ülviyyə Abdullayeva 2015-ci ilin Azərbaycan Tibb Universitetinin "Ən Yaxşı İdmançı" sı adına layiq görülmüşdür.

Bu qələbələr münasibətilə bədən tərbiyəsi və idman kafedrasının bütün əməkdaşlarını təbrik edir, daima zirvələrdə olmalarını arzulayırıq.

**Q. Aslanov**

*Bədən tərbiyəsi və idman kafedrasının müəllimi*

# Azərbaycan Tibb Universitetini əla qiymətlərlə başa vuran məzunlarımız

## Cəfərova Pərvin Əmiraslan qızı



1991-ci ildə Bakı şəhərində anadan olub. Orta məktəb illərində ingilis dili, fizika və bir sıra fənlər üzrə keçirilən rayon olimpiadalarında iştirak edib, yüksək nəticələr qazanıb. Pərvinin şeirləri dəfələrlə qəzet və almanaxlarda çap olunub. 2009-cu ildə Xətai rayonundakı Murad Hacıyev adına 116 saylı orta məktəbini əla qiymətlərlə başa vuraraq 611 balla Azərbaycan Tibb Universitetinin II müalicə profilaktika fakültəsinə qəbul olub. Bu il ATU-nu fərqlənmə diplomu ilə bitirən Pərvin peşəkar mütəxəssis kimi insanların xidmətində dayanmaq arzusundadır.

## Sadıqzadə Lalə Məzahir qızı



1992-ci ildə Bakıda anadan olub. 1998-ci ildə Bakıdakı 141 saylı orta məktəbin I sinfinə gedib. 2009-cu ildə orta təhsilini əla qiymətlərlə başa vuraraq 635 balla Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə qəbul olub. 2012-ci ilin aprel ayında "Metabolik sindrom" mövzusunda Tələbə Elmi Cəmiyyətində fakültə üzrə III yer, I daxili xəstəliklərin propedevtikası kafedrasında I yer tutub. Həmin ilin iyulunda İstanbulda Eğitim ve Araştırma Xəstəxanasında təcrübə keçib. 2014-cü ilin sentyabrında Türkiyədə YDS (Yabancı Dil Sınavı) imtahanında 62 bal toplayıb və imtahanı müvəffəqiyyətlə başa vurub. İngilis, rus, alman və türk dillərini bilir. Musiqi zövqü var. Pianoda gözəl ifa edir və musiqi məktəbini də əla qitmətlərlə bitirib.

## Səmədli Aytən Firuz qızı



1992-ci ildə Bakı şəhərində anadan olub. 1998-2009-cu illərdə Nizami rayonundakı 32 saylı orta məktəbdə təhsil alıb. Bu müddətdə riyaziyyat, kimya, biologiya fənləri üzrə olimpiadalarda iştirak edib və nəticələri ilə fərqlənib. 2009-cu ildə 675 balla ATU-nun I MPF fakültəsinə daxil olaraq Prezident təqaüdünə layiq görülüb. 2011-ci ildə histologiya kafedrasında "Endotoksinin nazik bağırsaq xovlarına təsiri və endotoksik şok" mövzusunda elmi iş aparıb və 2-ci yerə layiq görülüb. 2015-ci ildə təhsilini əla qiymətlərlə başa vurub. Arzusu təhsilini rezidenturada layiqincə davam etdirmək, yüksək ixtisaslı mütəxəssis olmaqdır.

## Quliyeva Ramiyyə Elxan qızı



1992-ci ildə Rusiya Federasiyasının Dağıstan Respublikasının Kizlər şəhərində anadan olub. 2009-cu ildə Baki şəhərindəki 59 saylı tam orta məktəbi fərqlənmə ilə başa vuraraq 665 balla Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə daxil olub. Prezident təqaüdçüsü adını sonadək qoruyub saxlaya bilib. 2012-ci ilin aprel ayında "Şəkərli diabetin qaraciyər fermentlərinin aktivliyinə təsiri" mövzusunda Tələbə Elmi Cəmiyyətində fakültə üzrə birinci yer tutub. 2013 cü ilin iyul-avgust aylarında İstanbuldakı Şişli Etfal Eğitim ve Araştırma Xəstəxanasının ümumi cərrahiyyə şöbəsində təcrübə keçib. İngilis, rus, alman, turk dillərini bilir. Musiqiyə böyük marağı var. Rəşid Behbudov adına 2 saylı musiqi məktəbinin fortepiano sinfinin məzunudur.

Gələcəkdə təhsilini Almaniyada davam etdirmək istəyir.

## Mustafazadə Pərvin Əmir qızı



1991-ci ildə Bakıda anadan olub. 244 saylı orta məktəbi bitirəndən sonra 648 balla Azərbaycan Tibb Universitetinin I müalicə işi fakültəsinə daxil olub. 2013-cü ildə "Göz sinirinin atrofiyası" mövzusunda etdiyi çıxışına görə TEC-də fakültə üzrə II yer tutub. 2014-cü ildə İstanbulda Egitim Araşdırma Xəstəxanasında təcrübə keçib. Rus, türk, ingilis dilini bilir. Gələcəkdə təhsilini Almaniyada davam etdirmək istəyir. Uğurlar...

## Səfərova Leyla Şəmsi qızı



1991-ci ildə Ağdam rayonunun Yusifcanlı kəndində anadan olub. 1998-ci ildə Ağdam rayonundakı 73 saylı tam orta məktəbin birinci sinfinə gedib. 2009-cu ildə həmin məktəbi əla qiymətlərlə bitirib.

Həmin il 565 bal toplayaraq Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsinə qəbul olub. Bu il adıçəkilən fakültəni fərqlənmə diplomu ilə bitirib.

Rezidentura imtahanlarının birinci mərhələsində 83 bal toplayıb. Hazırda ciddi surətdə ikinci mərhələyə hazırlaşır. Məqsədi bu mərhələdə yüksək nəticə əldə etmək, savadlı və bacarıqlı həkim kimi xalqının sağlamlığı keşiyində durmaqdır.

## Mahmudov Sərxan Cəlil oğlu



1991-ci ildə Bakı şəhərində anadan olub. Hələ uşaq yaşlarından həkim olmağı arzulayıb. Təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan və Ali Baş Komandan cənab Prezident İlham Əliyevin daim diqqətdə saxladığı ordu quruculuğundakı inkişaf ona hərb sənətini sevdirib. Beləliklə, o, sənət seçimində hərbi sahəyə üstünlük verib. 2009-cu ildə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə daxil olmaqla həm həkim, həm də hərbçi olmaq arzusunu gerçəkləşdirib.

İlk günlərdən tədrisdə və intizamda fərqlənən S.Mahmudov tələbə və müəllimlər arasında dərin hörmət qazanıb. Fakültəni fərqlənmə diplomu ilə bitirən kursant S.Mahmudov Müdafiə nazirinin müvafiq əmri ilə tibb xidməti baş leytenantı rütbəsinə layiq görülüb. O, tibb sahəsində təhsilini artırmaq, əsgər və zabitlərimizə yüksək səviyyədə xidmət etmək əzmindədir.

## Mehdizadə Turan Nizami qızı



1991-ci ildə Bakı səhərində anadan olub. 1998-ci ildə Binəqədi rayonundakı 83 saylı məktəb-liseyin I sinfinə gedib. Təhsilini 8-ci sinifdən etibarən Heydər Əliyev adına liseydə davam etdirib. Dəfələrlə fizika və biologiya olimpiadalarında istirak edib. Respublika üzrə biologiya olimpiadasında 2 dəfə 2-ci və 3-cü yerləri qazanıb. 2009-cu ildə 640 balla Azərbaycan Tibb Universitetinə qəbul olub. Hazırda universiteti əla qiymətlərlə başa vurur.

**ATU-nu əla qiymətlərlə bitirən bu məzunların nümunəsində bütün məzunları səmimi qəlbdən təbrik edir, müstəqil həkimlik fəaliyyəti üçün vəsiqə alan gənclərimizə böyük uğurlar diləyirik!**

## Mirhadi-Qorçiyeva Gülər Surxay qızı



1992-ci ildə Bakı şəhərində həkim ailəsində anadan olub. 2009-cu ildə 291 saylı Araz Ekologiya liseyini fərqlənmə ilə bitirib. Elə həmin il 661 balla Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsinə daxil olub. Prezident təqaüdçüsüdür. 2015-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirir.

Ailəlidir. Bir övladı var. Arzusu bacarıqlı və savadlı bir həkim kimi xalqımızın sağlamlığı keşiyində durmaqdır. Uğurlar olsun...

### Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin III kurs, 109[b] qrup tələbəsi Verdiyeva Aytən Natiq qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# Azərbaycanda səhiyyə sahəsində vahid elektron idarəetmə sistemi yaradılır

**◆ Azərbaycanın informasiya texnologiyaları üzrə şirkəti "Neuron Technologies" xəstəxana informasiya idarəetmə sisteminin, həmçinin ölkəmizdə aptek müəssisələrinin elektron idarə edilməsi üzrə innovativ həllin tətbiqini planlaşdırır. Bu məqsədlə səhiyyə sistemində vahid elektron idarəetmə sisteminin yaradılması ilə bağlı layihəyə başlanılıb.**

Şirkətin rəhbəri İsmayıl Ələkbərovun verdiyi məlumata görə, layihə Türkiyənin "İsim Soft" və "Microsoft" şirkətlərinin iştirakı ilə tətbiq olunur.

"Azərbaycanın tibb sistemində 500-dən artıq müəssisə mövcuddur və məqsədimiz bu müəssisələrdə xüsusi platformanı tətbiq etməkdir. Bu elektron idarəetmə sistemi artıq Neftçilər xəstəxanasında bir neçə ildir ki, uğurla istifadə edilir. Biz, sadəcə, bu platformanı "İsim Soft"un müvafiq




proqramı əsasında və "Bulud" texnologiyası üzərindən yaradılmasını, proqramın Azərbaycan qanunvericiliyi və dilinə uyğun şəkildə lokallaşdırılmasını nəzərdə tuturuq. Sistemin "Bulud" üzərindən fəaliyyət göstərməsi sərf ediləcək məsrəfləri azaldacaq. Çünki müəssisələrə artıq əlavə serverlər və avadanlıq almağa ehtiyac olmayacaq", - deyə İ.Ələkbərov qeyd edib.

Sistemdə həkimlər, apteklər, dərmanlar və tibb müəssisələri ilə bağlı bütün məlumatlar yer alacaq.


Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 240